

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

"2007-2015-Cİ İLLƏRDƏ AZƏRBAYCAN GƏNCLƏRİNİN XARİCİ ÖLKƏLƏRDƏ TƏHSİLİ ÜZRƏ DÖVLƏT PROQRAMI"

RÜBLÜK İCMAL

**TƏDBİRLƏR VƏ NAİLİYYƏTLƏR**

## "Xaricdə Təhsil Alan və Məzun Olmuş Gənclərin Beynəlxalq Forumu" ictimai birliyinin (ASAIF) XII Forumu

Sentyabrın 5-də "Hyatt Regency" otelində "Xaricdə Təhsil Alan və Məzun Olmuş Gənclərin Beynəlxalq Forumu" ictimai birliyinin (ASAİF) XII Forumu keçirilib. Dövlət Himninin səslənməsi ilə start verilən Forumun açılış mərasimində dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, qeyri-hökumət təşkilatlarının təmsilçiləri, KİV nümayəndələri iştirak ediblər.

Forumun açılışında Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin forum iştirakçılarına təbrik məktubunu oxuyub: "Müasir dünyada baş verən proseslərin təhlili göstərir ki, qabaqcıl ölkələrin qazandığı uğurların təməlində, ilk növbədə, elm və təhsil, intellektual potensial və texnoloji tərəqqi dayanır.

Bu məqsədlə paytaxt və regionlarda fəaliyyət göstərən tədris müəssisələrinin binaları yenilənərək müasir avadanlıqlarla təchiz edilir, ali məktəblərin maddi-texniki bazası möhkəmləndirilir, dövrün tələblərinə uyğun dərsliklər və dərs vəsaitləri hazırlanır. Təhsil sahəsində həyata keçirilən ən mühüm tədbirlərdən biri də 2007-ci ildə təsdiq edilmiş Dövlət Proqramı əsasında minlərlə gəncin inkişaf etmiş ölkələrin qabaqcıl ali məktəblərinə göndərilməsidir. Biz onların Azərbaycana yüksək ixtisaslı mütəxəssis və bacarıqlı menecerlər kimi qayıtmasını arzulayırıq. Təqdirəlayiq haldır ki, xaricdə oxuyan tələbələrimiz elmin əsaslarına dərindən yiyələnmək üçün inadla çalışır, məzun olub Vətənə döndükdən sonra öz biliklərini ölkə həyatının müxtəlif sahələrində uğurla tətbiq edə bilirlər".

Məktubda eyni zamanda qeyd olunmuşdur ki, xaricdə təhsil alan gənclərimiz oxuduqları ali məktəblərdə, şəhər və ölkələrdə təşkilatlanmalı, səfirliklərimiz və diaspor qurumları ilə yaxından əməkdaşlıq etməlidirlər. ASAİF də yalnız Azərbaycanda və Avropanın müxtəlif ölkələrində tədbirlər keçirməklə kifayətlənməməli, hazırda təhsil alan və məzun olmuş gənclərlə davamlı iş mexanizmi qurmalıdır. Ə.Həsənov öz çıxışında qeyd edib ki hər bir ölkənin strateji inkişafı, müstəqilliyinin möhkəmləndirilməsi və dövlətçiliyinin gücləndirilməsi birbaşa olaraq gənc kadrların hazırlanmasından,onların intellektual və yaradıcı qüvvəyə, vətəndaş cəmiyyətinin aparıcı üzvlərinə çevrilməsindən asılıdır.

O, həmçinin çıxışında xaricdə təhsil alanların əlaqələndirilməsinin və şəbəkə şəklində fəaliyyət göstərməsinin vacibliyini də vurğulayıb. Bu sahədə Rusiyada fəaliyyət göstərən və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təsis etdiyi və rəhbəri olduğu rəhbərlik etdiyi Rusiya Azərbaycanlı Gənclər Təşkilatının (AMOR) fəaliyyətini nümunə kimi önə çəkən Ə. Həsənov bildirib ki, gənclərimiz təhsil aldıqları ölkənin mədəni həyatına inteqrasiya etməli, vətənimizin mədəniyyət elçilərinə çevrilməlidirlər.




Forumda çıxış edən təhsil naziri Mikayıl Cabbarov qeyd edib ki, əsasını ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi ölkəmizin inkişafının strateji milli siyasi xətti bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Bu gün Azərbaycan dövləti sürətli inkişaf dövrünü yaşayır və bu inkişaf təbii ki, gənclər üçün yeni imkanlar açır. Azərbaycanın iqtisadi potensialı artdıqca bütün sahələrin inkişafına kapital qoyulur və bu müsbət nəticələr verir.

O qeyd etmişdir ki, gənc nəsil bu prosesdən kənarda qalmayıb və yüksək intellektli, vətənpərvər gəncliyin formalaşması üçün çox əhəmiyyətli layihələr həyata keçirilir.

Bu baxımdan "Xaricdə təhsil üzrə Dövlət Proqramı" gənclərin təhsil almaları üçün bərabər imkanların təmin edilməsində mühüm rol oynayır və ölkəmizdə insan kapitalının keyfiyyətinin artırılmasına imkan yaradır.

Gənclər və idman naziri Azad Rəhimov ölkəmizin dünyada tanınmasında gənclərimizin böyük rol oynadığını bildirib. O həmçinin onu da əlavə edib ki, gənc nəslin təhsilinə qoyulan sərmayə gələcəyə yönəlmiş ən səmərəli yatırım sayılır. Dünya idman arenalarında bayrağımızı ucaldan hər bir gənc həm də ölkəmizin nüfuzunun artmasına öz töhfəsini verir.

Daha sonra Forum iştirakçıları öz suallarını ünvanlayıb və suallar ətrafında müzakirələr aparılıb. Müzakirələrdə Təhsil naziri Mikayıl Cabbarov, Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev, Dövlət Neft Fondunun İcraçı direktoru Şahmar Mövsümov, Gənclər Fondunun icraçı direktoru Fərhad Hacıyev, millət vəkili Fuad Muradov da iştirak ediblər.

Aparılan müzakirələr zamanı bir fikir xüsusi vurğulanıb ki, xaricdə təhsil alan tələbələr və məzun olaraq çalışan vətəndaşlarımız yüksək səviyyəli mütəxəssis olaraq ölkəmizi layiqli təmsil etməli, milli mənafelərimizin və dəyərlərimizin qorunması sahəsində əməli işlər görməlidir.

## İSLAHATLAR

### Dövlət Proqramı çərçivəsində təhsil alan tələbələrin aylıq təqaüdlərində artım

"2007-2015-ci illərdə Azərbaycan gənclərini xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində ABŞ, İsveçrə və Çində təhsil alan təqaüdçülərin aylıq təqaüdlərinin məbləğinə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 4 iyul 2014-cü il tarixli, 220 nömrəli qərarı ilə dəyişiklik edilib.

Xaricdə təhsil alan tələbələr tərəfindən Təhsil Nazirliyinə ünvanlanan çoxsaylı təklif və müraciətlər əsasında, eyni zamanda Nazirlik tərəfindən Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəlikləri vasitəsilə aparılan araşdırmalar nəticəsində, Dövlət Proqramı çərçivəsində təhsil alan tələbələrin maddi rifahının yaxşılaşdırılması və onların təhsil aldığı ölkələrdəki inflyasiya şəraitinə uyğun olaraq xərclərinin qarşılanmasında rahatlıqlarının təmin olunması məqsədilə 2014-2015-ci tədris ilindən etibarən ABŞ, İsveçrə və Çində təhsil alan təqaüdçülərin aylıq təqaüdlərinin məbləğinə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 4 iyul 2014-cü il tarixli, 220 nömrəli qərarı ilə dəyişiklik edilib.



Dəyişiklik nəticəsində, ABŞ-ın yaşayış səviyyəsi yüksək olan şəhərlərinin siyahısına Los-Anceles, San-Fransisko şəhərləri də əlavə edilərək aylıq təqaüdlərin məbləği 1900 ABŞ dollarına, digər şəhərlər üçün isə 1400 ABŞ dollarına çatdırılıb.

Eyni zamanda, İsveçrə və Çin (Honkonq və Şanxay şəhərləri) üzrə də aylıq təqaüdlərin məbləği müvafiq ardıcıllıqla 1400 avroya və 1050 ABŞ dollarına qaldırılıb.

### Azərbaycanda ilk dəfə xaricdə dövlət hesabına təhsil alan tələbələrə təqaüd kartları verilib

"2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində xaricdə təhsil almaq hüququ qazanmış yeni tələbələrə ilk dəfə olaraq "DP təqaüd kartı"nın verilməsinə başlanılıb.

Bu kartların tətbiq edilməsində məqsəd əvvəlki illərin təcrübəsi əsasında Dövlət Proqramı çərçivəsində xarici ölkələrin ali təhsil müəssisələrində təhsil alan tələbələrin təqaüdlərinin maliyyələşdirilməsi mexanizmlərini daha da optimallaşdırmaqdır.

DP təqaüd kartları tələbələrin təqaüdlərinin gecikdirilmədən, qısa müddət ərzində köçürülməsini təmin edəcək. Bunun nəticəsində xarici ölkələrdə təhsil alan tələbələr maddi sıxıntı ilə üzləşməyəcəklər.

Bu kartlar hələlik Dövlət Proqramı çərçivəsində xarici ölkələrin ali məktəblərinə bu il qəbul olunan tələbələrə veriləcək. Əvvəlki illərdə təhsil alan tələbələrə bu təqaüdlərin verilməsi prosesi daha sonra nəzərdən keçiriləcək.

## YENİ QƏBUL İLİ

### 2014-2015-ci tədris ilində Dövlət Proqramı çərçivəsində xaricdə təhsil üçün müsabiqəyə sənəd qəbulu baş tutmuşdur

22 may 2014-cü il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Təhsil üzrə Komissiya sədrinin 11 nömrəli, 10.02.2014-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gənclərinin xaricdə təhsil almaları məqsədi ilə seçilmiş ali təhsil müəssisələrinin siyahısı"na və "prioritet ixtisas istiqamətləri"nə uyğun olaraq xarici ölkələrin ali məktəblərində təhsil alan və ya şərtsiz təhsil almaq hüququ qazanmış Azərbaycan Respublikası vətəndaşları üçün "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"na elan edilmiş müsabiqəyə sənəd qəbulu başlanmış və bu proses 08.08.2014-cü il tarixinə kimi davam etmişdir.

Ötən illərdən fərqli olaraq, Dövlət Proqramı çərçivəsində xaricdə təhsil üçün həyata keçirilən müsabiqəyə sənəd qəbulu "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 23.05.2011-ci il tarixli, 429 saylı Fərmanı"na uyğun olaraq və eyni zamanda Təhsil Nazirliyinin Dövlət Proqramı çərçivəsində xaricdə təhsil ilə bağlı aparılan islahatların davamı nəticəsində tam elektron qaydada həyata keçirilmişdir. "Tez-tez verilən suallar" bölməsinin yenilənməsi, sənəd qəbuluna dair müxtəlif formalı təlimatların hazırlanaraq vətəndaşların istifadəsinə təqdim olunması onların Nazirliyə gəlmələrinin, telefon və digər vasitələrlə əlaqə saxlamalarının sayını müsbət mənada ciddi şəkildə azaltmışdır. Bu da sənəd qəbulu, təhsil alan tələbələrin illik qeydiyyatı və digər məsələlərin daha çevik aparılması üçün işgüzar şəraiti münbitləşdirmişdir. Yüksək rəqabət mühitində keçən seçim prosesində ötən illərə nisbətən fərqləndirici akademik göstəricilərə sahib olan tələbələrin sayı daha çox olmuşdur.

### Təhsil naziri cənab Mikayıl Cabbarovun tələbələrlə görüşü



Azərbaycan Respublikasının təhsil naziri cənab Mikayıl Cabbarov 2014-2015-ci tədris ilində xarici ölkələrin ali təhsil müəssisələrində Dövlət Proqramı çərçivəsində təhsil almaq üçün Azərbaycan Respublikası Prezidenti yanında Təhsil üzrə Komissiya tərəfindən təsdiq olunmuş tələbələrlə görüşüb.

Görüş zamanı nazir tələbələri təbrik edərək onlara təhsillərində uğurlar arzulayıb və dövlətimizin gənclərə göstərdiyi etimadı doğruldacaqlarına ümidvar olduğunu bildirib. Azərbaycan gənclərinin dünyanın ən aparıcı ali məktəblərində təhsil almasının əhəmiyyətinə toxunan nazir onların ölkəmizin dinamik inkişaf prosesinə layiqli töhfələr verəcəyinə əminliyini ifadə edib. Görüşdə Dövlət Proqramı çərçivəsində xaricdə təhsil almaq hüququ qazanmış yeni tələbələrə ilk dəfə olaraq "DP təqaüd kart"ları təqdim edilib.

Azərbaycan Respublikası Prezidenti yanında Təhsil üzrə

Komissiya tərəfindən müsbət rəy verilmiş ilk tələbələrin bir qrupu təhsilini Böyük Britaniya, Türkiyə, İsveçrə, Kanada, Niderland Krallığı, Avstraliya, Almaniya, ABŞ, Finlandiya, İtaliya, Belçika, İspaniya və İsveçdə bakalavriat,magistratura, rezidentura və fəlsəfə doktoru səviyyələrində davam etdirəcəklər. Bu tələbələr arasında Harvard, Kembridc, Lund, Melburn universitetləri və Parisin Ali Kommersiya Məktəbi kimi dünyanın aparıcı ali təhsil müəssisələrinə qəbul olunmuş gənclərimiz yer alır.

## UĞURLAR

### Azərbaycanlı həkimdən xeyriyyə aksiyası

"2007–2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində Fransanın “University Paris 11 – Universite Paris Sud” ali təhsil müəssisəsində “Tibb” ixtisası üzrə magistratura təhsil səviyyəsində təhsil almış Araz Eldar oğlu Bayramovun təşəbbüsü ilə regionlarda xəstələrin pulsuz müayinəsi təşkil olunmuşdur. Şəkidə başlayan kampaniya Şirvan, Lənkəran və Gəncə zonalarında davam etdirilmişdir.



Araz Bayramov bildirib ki: “Hər bir həkim, peşəkar mütəxəssis imkanı olmayan, ehtiyacı olan insanları da nəzərə almalı, onlara yardım etməyə çalışmalıdır. Bizim də məqsədimiz böyrək xəstəliklərindən əziyyət çəkən insanlara yardım etməkdir və bu niyyətlə regionlara səfərimiz nəzərdə tutulub”.

Xatırladaq ki, Avropa və Fransa Uroloqlar Cəmiyyətinin , Dünya Endo Uroloqlar Cəmiyyətinin aktiv üzvü Dr. Araz Bayramov böyrək daşlarının müalicəsi üzrə Azərbaycanda bir çox yeniliklərə imza atıb. Böyrək daşlarının tam kəsiksiz üsulla Flexible Urs müalicəsini ilk dəfə ölkəmizdə tətbiq edib. Eyni zamanda Uroloq-androloqun Belqrad və Londonda baş tutacaq Avropa Uroloqlar Cəmiyyətini Konqreslərində Böyrək daşlarının müasir müalicəsi haqda çıxışları nəzərdə tutulmuşdur.

### Azərbaycanlı tələbələr xarici ölkədə fəxri sertifikatla mükafatlandırıldılar

"2007–2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində Kanadanın Toronto Universitetində “Mühasibat uçotu” ixtisası üzrə bakalavriat təhsil səviyyəsində təhsil alan Məmmədrəhim Şahin oğlu Həsənli və sözügedən Universitetin “İnformasiya texnologiyaları” ixtisası üzrə bakalavriat təhsil səviyyəsində təhsil alan Elman Elşad oğlu Mənsimov təhsil aldıqları müddət ərzində yüksək akademik göstəricilərinə görə 2014-cü ildə fakültə dekanlığı tərəfindən fəxri sertifikata layiq görülmüş və təhsil aldıqları fakülətnin ən yüksək göstərici nümayiş etdirən tələbələrinin siyahısına daxil edilmişlər.

### “Bilimsel başarı ödülü” alan ilk azərbaycanlı tələbə

"2007–2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində Türkiyənin İstanbul Universitetində “Müalię işi” ixtisası üzrə baza ali tibb təhsil səviyyəsində təhsil alan tələbəmiz Emil Səməndər oğlu Əliyev böyük müvəffəqiyyətlə Universiteti başa vuraraq, məzun olmuşdur.

Bundan əlavə, tələbə İstanbul Universitetinin “Tibb” fakültəsinin 4 sahədə təqdim etdiyi “Dekanlık başarı Ödülleri”nin “Bilimsel başarı Ödülü”nə layiq görülmüşdür. Onu da əlavə etmək istərdik ki, Emil Əliyev İstanbul Universitetinin 561 illik və Universitetin “Tibb” fakültəsinin isə 187 illik tarixində bu mükafata layiq görülən ilk azərbaycanlı və əcnəbi tələbədir.